<table>
<tr><td rowspan="9">Ümumi məlumat</td><td>Fənnin adı, kodu və kreditlərin sayı</td><td>EDU101, Təhsilə giriş, 6 AKTS</td></tr>
<tr><td>Departament</td><td>Təhsil</td></tr>
<tr><td>Proqram<br>(bakalavr, magistr)</td><td>Bakalavr</td></tr>
<tr><td>Tədris semestri</td><td>2025/26-cı tədris ilinin yaz semestri</td></tr>
<tr><td>Fənni tədris<br>edən müəllim (lər)</td><td>İlqarə Abdullayeva</td></tr>
<tr><td>E-mail:</td><td>ilgara.abdulla@gmail.com</td></tr>
<tr><td>Telefon:</td><td>-</td></tr>
<tr><td>Mühazirə otağı/Cədvəl</td><td>Şənbə günləri; 9:00-10.30 ; 10.40-12.10<br>Nərimanov korpusu, 306 -cı otaq</td></tr>
<tr><td>Məsləhət saatları</td><td>Tələbələrlə razılaşdırılan vaxtlarda</td></tr>
<tr><td>Prerekvizitlər</td><td colspan="2">-</td></tr>
<tr><td>Tədris dili</td><td colspan="2">Azərbaycan</td></tr>
<tr><td>Fənnin növü<br>(məcburi, seçmə)</td><td colspan="2">Məcburi</td></tr>
<tr><td>Dərsliklər və<br>əlavə ədəbiyyat</td><td colspan="2">Əsas dərsliklər:<br>1. Gültekin, Mehmet. (2018). Təhsil elminə giriş. Ön söz, əlavə və dəyişikliklər: Qoşqar Məhərrəmov. Bakı: Xəzər Universiteti nəşriyyatı, 276 s.<br>2. A.Süleymanova. Təhsilin əsasları. Bakı 2014<br>3. Abbasov, Ə. M., Cavadov, İ. A., İbadova, B. O., Quliyeva, K. R., Sultanova, İ. H., & Cavadova, S. E. (2013). Kurikulum bələdçisi. Bakı.<br>4. Azərbaycan Respublikasının Təhsil Qanunu (2009)<br><br>Əlavə internet resurslarından istifadə olunacaq.</td></tr>
<tr><td>Kursun təsviri</td><td colspan="2">Təhsilə giriş kursu təhsildə qarşıya çıxan problemləri, demoqrafiyanı, təhsilin qeyri-ənənəvi şəraitdə insan inkişafında və təhsildə dəyişən fikirləri hərtərəfli öyrənir. Əsas təhsil fəlsəfəsinin tədris prosesi, metodları, kurikulum və təhsilin idarəolunmasını araşdırır, təhsilin məqsədlərini və metodlarını inkişaf etdirməyə kömək edir. Ümumi təhsilin keyfiyyətini yüksəltmək üçün lider, yaradıcı və tədqiqatçı pedaqoji kadrlar hazırlamağa kömək edir.</td></tr>
<tr><td>Kursun məqsədləri</td><td colspan="2">“Təhsilə giriş” kursunun əsas məqsədi tələbələrdə təhsilin mahiyyəti, funksiyaları və cəmiyyətdə rolu haqqında sistemli və elmi biliklərin formalaşdırılmasıdır. Kurs çərçivəsində tələbələr təhsilin əsas anlayışları, təhsil fəlsəfəsi və müxtəlif təhsil nəzəriyyələri ilə tanış olur, onların müasir təhsil prosesində tətbiqini öyrənirlər. Eyni zamanda kurs tələbələrə dünya və Azərbaycan təhsil tarixinin əsas mərhələləri, təhsil sisteminin strukturu və inkişaf xüsusiyyətləri haqqında ümumi təsəvvür formalaşdırmağı hədəfləyir.<br>Kursun məqsədlərindən biri də tələbələrə təhsilin hüquqi əsaslarını, dövlət təhsil siyasətini və kurikulum anlayışını izah etmək, müasir təhsil proqramlarının mahiyyətini anlamağa kömək etməkdir. Bundan əlavə, kurs qloballaşma şəraitində təhsilin inkişafı, inklüzivlik, gender bərabərliyi və müasir təlim strategiyaları kimi mövzuların öyrənilməsinə imkan yaradır.</td></tr>
</table>

<table>
<tr><td>Tədrisin (öyrənmənin) nəticələri</td><td colspan="3">Kursun sonunda tələbələr nəyi bilməlidirlər və bacarmalıdırlar:<br>• Təhsilin meydana gəlməsi və inkişafı haqqında məlumat əldə edəcəklər;<br>• Təhsildə yaranan yeni anlayışlarla tanış olacaqlar;<br>• Müasir dövrün tələblərinə cavab verəcək sinif, müəllim, şagird, valideyn münasibətlərinin yaradılması haqqında fikir və təsəvvür formalaşacaq;<br>• Təhsildə baş verən islahat xarakterli proseslərlə tanış olacaqlar;<br>• Azərbaycan təhsil sistemini dünya təhsil sistemi ilə müqayisə edəcəklər.<br>Fənnin məzmununu təşkil edən mövzular tələbələrin əldə edəcəyi bilik və bacarıqları daha aydın dərk etmək və sistemləşdirmək məqsədlərinə xidmət edir.</td></tr>
<tr><td rowspan="4">Tədris metodları</td><td>Məşğələ</td><td colspan="2">+</td></tr>
<tr><td>Qrup müzakirəsi</td><td colspan="2">+</td></tr>
<tr><td>Praktiki tapşırıqlar</td><td colspan="2">+</td></tr>
<tr><td>Praktiki məsələnin təhlili</td><td colspan="2">+</td></tr>
<tr><td rowspan="8">Qiymətləndirmə</td><td>Komponentləri</td><td>Tarix/son müddət</td><td>Faiz (%)</td></tr>
<tr><td>Aktivlik</td><td>Semestr müddətində</td><td>5</td></tr>
<tr><td>Davamiyyət</td><td>Semestr müddətində</td><td>5</td></tr>
<tr><td>Quiz</td><td>Semestr müddətində</td><td>10</td></tr>
<tr><td>Qrup işi</td><td>Semestr ərzində 3 dəfə</td><td>10</td></tr>
<tr><td>Aralıq imtahanı</td><td></td><td>35</td></tr>
<tr><td>Final imtahanı</td><td></td><td>35</td></tr>
<tr><td>Yekun</td><td></td><td>100</td></tr>
<tr><td>Qaydalar<br>(Tədris siyasəti və davranış)</td><td colspan="3">Davamiyyət<br>Müəllim davamiyyət və aktivliyi diqqətlə izləyir və qeyd edir. Xüsusi səbəb olmadıqda, tələbənin hər dərsdə iştirak etməsi vacibdir. Dərsə gəlməyən tələbənin və ya dərs prosesində müzakirələrdə iştirak etməkdən imtina edən tələbənin davamiyyət balı azalır. İştirak etmədiyi dərsin qeydlərini və mövzularını digər tələbələrdən əldə etmək tələbənin öz məsuliyyətidir. Tələbələrin bütün dərslərdə iştirakı vacibdir. Tələbələr müəyyən səbəblərdən dərslərin buraxılması (xəstəlik, ailə vəziyyəti və s.) haqqında məlumatı fakültə dekanlığına təqdim etməlidirlər. 25%-dən artıq dərs (8 qayıb) buraxan tələbələr imtahana buraxılmır. (2 qayıb = 1bal).<br>Qrup işləri<br>Qrup işləri Tələbələrin bütün planlaşdırılmış qrup müzakirələrində fəal iştirak etməsi məqsədəuyğundur. Onların iştirakı diqqətlə izlənilir və dəyərləndirilir. Bu cür qrup müzakirələri təhsilalanda komandada işləmək, yoldaşlarından rəy almaq, rəy vermək, müxtəlif mövzular üzrə refleksiya etmək bacarıqlarını inkişaf etdirməyi hədəfləyir.<br>Qrup işinin qiymətləndirilməsi<br>9-10 Mövzu tam şəkildə işlənib, təqdimat məzmun, struktur və çıxış baxımından mükəmməldir.<br>7-8 Kiçik qüsurlar olsa da, ümumi keyfiyyət yüksəkdir.<br>5-6 Mövzu əsasən yaxşı işlənib, lakin məzmunda bəzi hissələrdə çatışmazlıqlar var.</td></tr>
</table>

3-4 Təqdimat əsas tələblərə cavab verir, lakin mövzu üstüörtülü işlənib, təqdimat qeyri-sistemlidir.
1-2 Minimum tələbləri qarşılayır, məzmunda ciddi boşluqlar mövcuddur.
0 Tapşırıq işlənməyib.

**İmtahanlar**

Aralıq imtahanı oktyabr ayında tədris olunan mövzular üzrə, final imtahanı noyabr və dekabr ayında tədris olunan mövzular əsasında keçiriləcəkdir. Tələbənin imtahanda iştirakı və ya imtahanın buraxılması ilə bağlı bütün məsələlər fakültə rəhbərliyi tərəfindən həll olunur.

**Fənni bitirmək qaydası**

Univesitetin qaydalarına müvafiq olaraq kursu bitirmək üçün ümumi müvəffəqiyyət faizi 60% və daha yuxarı hesab edilir. Kəsri olan tələbə bu fənni növbəti semestr və ya növbəti il təkrarən götürə bilər.

**İmtahan qaydalarının pozuntuları**

Aralıq və yekun imtahanları vaxtı tələbə tərəfindən imtahanın gedişini pozmaq və köçürmələr qadağandır. Bu qaydaya əməl etməyən tələbənin imtahan işi ləğv olunur və tələbə 0 (sıfır) qiymət ilə imtahandan kənarlaşdırılır.

**Tələbənin davranış qaydaları**

Dərs zamanı dərs prosesini pozmağa və ya qeyri-etik hərəkətlər etməyə, həmçinin tələbələrin icazəsiz müzakirələrinə və mobil telefondan istifadəsinə icazə verilmir.

**Cədvəl (dəyişdirilə bilər)**

| Həftə | Tarix | Fənnin mövzuları | Dərslik/Tapşırıqlar |
|---|---|---|---|
| 1. | 21.02.2026 | Sillabus –Kursun məqsədi, məzmunu, qiymətləndirmə metodları və s.<br>Təhsilin mahiyyəti və əsas anlayışlar<br>Təhsilin tərifi, məqsədləri və cəmiyyətdə rolu.<br>Təhsilin funksiyaları<br>Sosial, iqtisadi, mədəni və fərdi inkişaf funksiyalar | Kursun sillabusu.<br>A.Süleymanova "Təhsilin əsasları", Bakı – 2014. Fəsil 1<br>Gültekin, M. (2018)<br>Müəllim tərəfindən tərcümə olunmuş, hazırlanmış təqdimat |
| 2. | 28.02.2026 | Təhsil fəlsəfəsi və əsas təhsil nəzəriyyələri<br>Behaviorizm, konstruktivizm, humanizm və digər yanaşmalar. | A.Süleymanova "Təhsilin əsasları", Bakı – 2014. Fəsil 1;<br>Müəllim tərəfindən tərcümə olunmuş, hazırlanmış təqdimat |
| 3. | 07.03.2026 | Təhsilin tarixi inkişafı<br>Dünya və Azərbaycan təhsil tarixinin əsas mərhələləri | Mehmet Gültəkin (2018) Fəsil 7<br>Müəllim tərəfindən, hazırlanmış təqdimat |
| 4. | 14.03.2026 | Azərbaycan təhsil sisteminin strukturu və növləri<br>Məktəbəqədər, ümumi, orta, peşə və ali təhsil pillələri. | M. Gültəkin (2018) - Təhsil elminə giriş (Fəsil 9) |

| | | | |
|---|---|---|---|
| 5. | 04.04.2026 | Təhsilin hüquqi əsasları və təhsil siyasəti<br>Təhsil qanunu, dövlət siyasəti və əsas prinsiplər | Azərbaycan Respublikasının Təhsil Qanunu (2009) Maddələrə nəzər salma.<br>A. Süleymanova (2014) -Fəsil 2: Təhsil siyasəti və qanunvericilik əsasları<br>Mehmet Gültəkin (2018) Fəsil 9 Azərbaycan təhsil sisteminin strukturu və iş prinsipi |
| 6. | 11.04.2026 | Kurikulum anlayışı və təhsil proqramları | Süleymanova (2014) -Fəsil 4: Ümumi təhsilin kurikulumu və təlimin əsasları<br><br>Abbasov, Ə. M., Cavadov, İ. A., İbadova, B. O., Quliyeva, K. R., Sultanova, İ. H., & Cavadova, S. E. (2013). *Kurikulum bələdçisi.* Bakı. Fəsil 4 |
| **Aralıq imtahanı** | | | |
| 7. | 18.04.2026 | Qloballaşma və təhsil<br>Beynəlxalq təsirlər, Boloniya prosesi və təhsildə inteqrasiya. | https://antifenu.wordpress.com/2012/11/25/t%C9%99hsild%C9%99-boloniya-sisteminin-inkisaf-prespektivl%C9%99ri/<br>https://antifenu.wordpress.com/2012/05/15/402/<br>https://www.scribd.com/document/748876785/N-Muhazir%C9%99-15-Qloballa%C5%9Fma-muasir-dovrd%C9%99-t%C9%99hsil-f%C9%99ls%C9%99f%C9%99si |
| 8. | 25.04.2026 | Təhsildə bərabərlik, gender və inklüzivlik<br>Müasir təlim strategiyaları və metodları<br>Şagirdmərkəzli təlim, aktiv öyrənmə metodları. | Müəllim tərəfindən hazırlanmış materiallar |
| 9. | 02.05.2026 | Bloom taksonomiyası və öyrənmə nəticələri<br>İdrak səviyyələri və tədrisdə tətbiqi. | Süleymanova (2014) -Fəsil 4: Ümumi təhsilin kurikulumu və təlimin əsasları 124-136<br>Müəllim tərəfindən tərcümə olunmuş, hazırlanmış təqdimat |
| 11. | 09.05.2026 | Məktəb idarəetməsi necə olur?<br>Təhsilalan, təhsilverən və valideyn kimi maraqlı tərəflər və onların əməkdaşlığı. | Süleymanova (2014) Fəsil 6: Təhsilin idarə olunması. |
| 12. | 16.05.2026 | Müəllimlik peşəsi və müəllimin əsas xüsusiyyətləri. | Gültekin, M. (2018) Fəsil 10 və 11 |

| | | | |
|---|---|---|---|
| | | Müəllimin vəzifə və öhdəlikləri. İdeal müəllim necə olmalıdır? | |
| 13. | 23.05.2026 | Təhsildə qiymətləndirmə barədə ümumi anlayış. Qiymətləndirmə mexanizmləri (diaqnostik, formativ, summativ qiymətləndirmə) | Süleymanova (2014) (Fəsil 8) Qiymətləndirmə  Təhsil lüğəti (2011) - "Formativ qiymətləndirmə" və "Summativ qiymətləndirmə" maddələri (s. 200–202).<br><br>Abbasov, Ə. M., Cavadov, İ. A., İbadova, B. O., Quliyeva, K. R., Sultanova, İ. H., & Cavadova, S. E. (2013). *Kurikulum bələdçisi.* Bakı. 7 bölmə |
| 14-15 | 30.05.2026 | Təhsildə İKT-in tətbiqi. | A.Süleymanova "Təhsilin əsasları"səh 236-257 |
| | | Keçirilən mövzuların yekun müzakirəsi | Müəllim tərəfindən hazırlanmış təqdimat |
| **Final imtahanı** | | | |